Kürdəmir rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərəcək İctimai Şuranın yaradılması üçün keçirilmiş seçkinin

# YEKUN PROTOKOLU

13 iyul 2022-ci il Kürdəmir şəhəri

Birgə yığıncaqda iştirak edirdilər.

**Seçki komissiyasının üzvləri:**

| | |
|---|---|
| **Vəsilə Əsgərli** | Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| **Şahin Əhmədov** | Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| **Elxan Qafarov** | Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı |
| **Samir Hüseynov** | Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən, məsləhətçi |
| **Fərəc Dadaşov** | Azərbaycan Vətən Müharibəsi veteranları Birliyinin Kürdəmir rayon şöbəsinin sədri |
| **Aqil Əliyev** | Kürdəmir şəhəri "Cümə" məscidinin imamı |
| **Əli Ağayev** | Böyük Vətən Müharibəsi, Əmək və Silahlı Qüvvələr Birliyinin Kürdəmir rayon şöbəsinin sədri |
| **Cəbrayıl Cəbrayılov** | Təhsil İşçiləri Həmkarlar Təşkilatının Kürdəmir rayon Komitəsinin sədri |
| **Rasim Əzizov** | Səhiyyə İşçiləri Həmkarlar Təşkilatının Kürdəmir rayon Komitəsinin sədri |

**Dəvət olunanlar:** **Kürdəmir rayon İcra Hakimiyyətinin əməkdaşları, təhsil və mədəniyyət işçiləri, ictimai birliklərin nümayəndələri, vətəndaşlar.**

**Gündəlik məsələ**

Kürdəmir rayon İcra Hakimiyyəti yanında fəaliyyət göstərəcək İctimai Şuranın növbəti iki il müddətinə seçilməsi.

**Eşidildi:**

Gündəlikdə duran məsələ barəsində iclasın və seçki komissiyasının sədri Vəsilə Əsgərli məlumat verərək bildirdi ki, Azərbaycan Respulikasının Nazirlər Kabinetin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dari Əsasnamə"nin 2.3-cü bəndini əsas tutaraq

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısının 07 iyun 2022-ci il tarixli 107 nömrəli sərəncamı ilə Kürdəmir Rayon İcra Hakimiyyəti Başçısı Aparatı yanında fəaliyyət göstərəcək İctimai Şuraya seçkinin təşkili komissiyası tərəfindən 18.06.2022-ci il tarixdə Kürdəmir rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində tələb olunan sənədlərin siyahısı, eləcədə, lazımı məlumatlar göstərilməklə İctimai Şuranın yaradılması ilə bağlı elan yerləşdirilmiş 13.07.2022-ci il tarixdə saat 16:00-da keçiriləcək seçkiyə namizədlərin qəbuluna başlanılmışdır

18.06.2022-ci il tarixdən 25.06.2022-ci il tarixədək həftənin 5 iş günü saat 09:00-dan 18:00-dək namizədlərin sənəd qəbulu aparılmış və müraciət edən aşağıdakı 10 namizədin hamısının namizədliyi komissiya üzvləri tərəfindən məqbul hesab olunmuşdur:

1. Nəsirov Ayyət Qurban oğlu
2. Cəfərov Fizuli Tapdıq oğlu
3. Bağıyeva Simuzər Əli qızı
4. Cəfərov Elnur Fəqani oğlu
5. Ağarəhimov Nicat Fuad oğlu
6. Osmanova Sevil İdris qızı
7. Əşrəfova Yaqut Bahadur qızı
8. Məlikov Xəyyam Çingiz oğlu
9. Şirinova Firuzə Ağakişi qızı
10. Cəbiyev Şəmşir Yadulla oğlu

Seçki komissiyası tərəfindən vətəndaş cəmiyyəti institutlarının müraciəti əsasında birgə yığıncaqda iştirak edəcək təmsilçilərin qeydiyyatı aparılmışdır.Komissiya tərəfindən aşağıdakı təmsilçilər qeydə alınmışdır.

| | | |
|---|---|---|
| Rəşadət Xələfov | - | Azərbaycan Gənclər və Ekologiya İctimai Birliyinin sədri |
| Zamin Kərimov | - | Qızıl Aypara Cəmiyyətinin Kürdəmir şöbəsinin sədri |
| Sabir Novruzov | - | Kürdəmir Ziyalılar cəmiyyətinin sədri |
| Altay İslamzadə | - | Kürdəmir rayon Mədəniyyət İşçiləri Həmkarlar Təşkilatının sədri |

## Çıxışlar:

1) Kürdəmir rayon Ziyalılar cəmiyyətinin sədri Sabir Novruzov çıxış nitqində qeyd etdi ki, demokratik prinsiplərlə idarə olunan dövlətdə vətəndaş cəmiyyətinin rolu böyükdür və "İctimai iştirakçılıq haqqında" qanunun tələblərindən irəli gələn yaradılacaq İctimai şuranın məqsədi Azərbaycan vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququnun ictimai iştirakçılıq formasında gerçəkləşdirilməsi üçün təminatlar yaratmaqdır. S.Novruzov çıxışını İctimai Şuranın həmin orqanın fəaliyyətinə obyektiv vətəndaş qiyməti verməkdə məsuliyyətli olmalı olduğunu deyərək bitirdi.
2) Gənclər və Ekologiya İctimai Birliyinin sədri Rəşadət Xələfov çıxış edərək bildirdi ki, ictimai iştirakçılığın məqsədləri vətəndaşların dövlət işlərinin idarə olunmasında bilavasitə iştiraka cəlb edilməsi, mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə içtimai nəzarətin həyata keçirilməsi, səmərəli qarşılıqlı fəaliyyətin təşkili, fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin, vətəndaşların qanuni tələbatlarının və maraqlarının nəzərə alınması, qanunvericiliklə müəyyən edilmiş qaydada vətəndaşların hüquqlarının və azadlıqlarının müdafiəsidir. Mən inanıram ki, yaradılacaq İçtimai Şura sadaladığım məsələlərə biganə qalmayacaq.
3) Qızıl Aypara Cəmiyyətinin Kürdəmir şöbəsinin sədri Zamin Kərimov söylədi ki, Azərbaycanda demokratikləşmə siyasətinin bütün sahələrdə uğurla inkişafı müşahidə olunur. Bu sırada vətəndaş təşəbbüslərinin dəstəklənməsi, dövlət orqanlarının yanında QHT-lərin iştirakı ilə ictimai qurumların yaradılması və s. kimi məsələrlə bağlı indiyədək bir sıra addımlar atılıb. Vətəndaşlar bu qanunun onlara yaratdığı hüquqi imkanlar çərçivəsində Kürdəmir rayon İcra Hakimiyyətinin fəaliyyətində ictimai iştirakçılığın məqsədini, prinsiplərini, forma və məzmununu ifadə etməklə yanaşı, həmçinin, ən əsası mövcud problemlərin həllinə də nail ola biləcəklər.

İclas yuxarıdakı çıxışlardan sonra seçki keçirərək

## Q Ə R A R A  A L I R

1) Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış aşağıdakı şəxslər Kürdəmir rayon İcra Hakimiyyəti Başçısı Aparatı yanında fəaliyyət göstərəcək İctimai Şuranın tərkibinə seçilmiş hesab olunurlar.

1. Nəsirov Ayyət Qurban oğlu
2. Cəfərov Fizuli Tapdıq oğlu
3. Bağıyeva Simuzər Əli qızı
4. Cəfərov Elnur Fəqani oğlu
5. Ağarəhimov Nicat Fuad oğlu

6. Əsmanova Sevil İdris qızı

7. Məlikov Xəyyam Çingiz oğlu

2) Seçki komissiyası tərəfindən seçkilərin nəticələrinə dair yekun protokolu tərtib olunduğu gündən iyirimi gün müddətində ilk iclasını keçirməklə İçtimai Şura fəaliyyətə başlasın.

İclasın sədri: V.Ə. Əsgərli

İclasın katibi: R.R. Heydərov

AZƏRBAYCAN RESPUBLİKASI KÜRDƏMİR RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI
SƏNƏDLƏR ÜÇÜN